


# “Xan Xəzinəsi”ndən reportaj



Metronun “Elmlər Akademiyası” stansiyasının çıxışında yenə “kitab dükanı ovuna” çıxdım. Ətrafda hər zamankı kimi tələbələr qaynaşır. Kimi əlində telefonla oynayır, kimi dərsə tələsir, kimi evə.

Bəxtiyar Vahabzadə küçəsiylə üzü aşağı düşüb Şəfaət Mehdiyev küçəsi, 88 ünvanındakı “Xan xəzinəsi Kitab Evi”ni tapdım. Yadıma Həsən bəy Zərdabinin sözləri düşdü: “Yaxşı kitab çox qiymətli xəzinədir!” Deyəsən, mən də xəzinə tapmışam, özü də Xan xəzinəsi. “Xan xəzinəsi” 20 ildən çoxdur Sumqayıtda və 2014-cü ildən bəri artıq Bakıda fəaliyyət göstərir. Hər bir oxucunun tanıdığı, ömür boyu kitab təbliğatıyla məşğul olan Xan Rəsuloğlunun bu kitab mağazasında hər cür kitab var. Qeyd edim ki, dükanda satışla yanaşı, kirayə və barter də mümkündür. Kitabların qiymətisə, həqiqətən də, çox ucuzdur. Burada 1 manata, hətta inanılmaz olsa da, 50 qəpiyə, 20 qəpiyə də kitab almaq olar. Yeni kitabların da qiymətilərində tez-tez endirimlər olur. Bundan əlavə, bir müəllifin köhnə nəşr on-on iki cild kitabını yeddi-səkkiz manata əldə etmək olar. Hansı ki onlar ayrı-ayrılıqda alınsa bu qiymətdən bir neçə dəfə baha başa gələr. Lev Tolstoy, Cek London, Anton Çexov, Qoqolun və daha kimlərin kitabları hazır yığılıb oxucusunu gözləyir.

Kitablar kirayəyə də verilir. Bircə şəxsiyyət vəsiqəsi və ya tələbə bileti qoymaqla satış qiymətinin 10%-i dəyərində pul ödəyib istənilən kitabı götürüb evdə rahatca oxuyub qaytarmaq olar. Əsas odur ki, kitab oxumaq həvəsi marağı olsun.

Sizə kitabların barterindən də deyim. Deməli, dəyişmək istədiyiniz kitabı bura gətirirsiniz, onu dəyərləndirir, əvəzində həmin qiymətə münasib başqa kitablardan götürməyi təklif edirlər. Beləliklə, oxucu istədiyi yeni kitabı bir qəpik də pul xərcləmədən, köhnə kitabını dəyişməklə əldə edir. Bundan yaxşı fürsət?!

Dükanda rəflərdən boylanan kitabları gözdən keçirdim. Gələn-gedən də çoxdur. Alıcılarla, satıcı Abdulla bəylə xeyli söhbətləşdik. Hər cür kitab var. Əsasən Azərbaycan, rus və Türkiyə türkcəsindədi. Amma əvvəlki illərlə nisbətdə götürsək, indi rus dilində olan kitablardan daha çox, Azərbaycan və Türkiyə türkcəsində kitablar alınır. Və daha çox detektiv, romantik kitablara üstünlük verilir. Klassik ədəbiyyatsa rəflərdə vaxtından əvvəl artıq əbədiyyətə qovuşub. Təəssüf olsun... Nə soruşan var, nə də alan. Tələbə qızlar “Nizamini, Füzulini universitetdə onsuz da məcburi oxuyuruq” dedi.

Dükanda hansı kitabların daha çox alındığı, kirayələndiyiylə maraqlandım. Elxan Elatlı, Varis, Rövşən Abdullayevin kitablarının adını çəkdilər. Ən çox alınan, kirayələnən kitablar bu müəlliflərindir. Elə sanki bunu təsdiqləməkdən ötrü dükanda olduğum qısa müddət ərzində gələn qızlardan bir neçəsi ayrı-ayrılıqda Elxan Elatlının kitablarından kirayə götürdülər. Onlardan biri rəfiqəsisinin tövsiyəsi ilə “Xəstə ruhlar” kitabını alıb vərəqlədi.



Detektiv çox dəbdə olduğu üçün Çingiz Abdullayev və Artur Konan Doylun kitabları yaxşı satılır. Ən çox tələbat isə Aqata Kristinin kitablarınadır. Den Braun, Mark Tven, Selincerin də kitablarını oxuyanlar tapılır. Orxan Pamuk, Xalid Hüseyninin əsərləri daha əvvəlki qədər dəbdə deyil. Bundan başqa bir ara Freydin kitabları çox oxunsa da, indi gənclər daha çox Oşonın əsərlərinə üstünlük verirlər. Tələbə qızlar Miraç Çağrı Aktaşın “Sən on yeddi yaşımsan”, Yustin Qarderin “Sofinin dünyası”, Sara Cionun “Yağışdan sonra” kitablarını bəyənib oxuyurlar. Burdan tez-tez kitab barter edən bir yeniyetmə oğlansa Mehdi Hüseyn və Mirzə İbrahimovun kitablarını axtarırdı.

Bir divar boyunca rəflərdə nə qədər desən, istənilən fənlər üzrə dərsliklər, testlər də var. Cəmi 20, yaxud 50 qəpiyə. Qəbul imtahanlarına hazırlaşan şagirdlər bu rəflərdəki kitablardan çox yararlanırlar.

Alıcıların çoxu Azərbaycan dilinə tərcümə olunmuş kitablardan şikayətlənirdi. Tərcümə keyfiyyətinin aşağı səviyyədə olmasından, əsərin anlaşılmaz cümlələrin həddindən artıq çox olmasından danışdılar. Tərcümədən başqa, ümumiyyətlə, kitablarda N qədər olan redaktə və korrektə səhvlərindən gileyləndilər. Xanımlardan biri, - axı kitab su kimi axıcı, rəvan olmalıdır, o cür, səhvlərlə dolu kitablara verilən pula adamın heyfi gəlir, vallah! - dedi.

Xan Xəzinəsi Kitab Evinin çox gözəl ənənəsi var. İlk dəfə gələn oxucuya bir kitab hədiyyə edirlər. Elə mənə də “Media hüququ” kitabını hədiyyə etdilər. Burada oturub kitabı gözdən keçirmədən ötrü də şərait var. Mütəxəssisdən oxumaq istədiyiniz, maraqlandığınız kitab haqqında soruşun. O, sizə mütləq məlumat verəcək, istiqamətləndirəcək. “Xəzinə”yə bir gəlib kitab alan, mütləq bir də gəlir. Demək olar ki, əksər kitabların burada həm təzəsini, həm də “ikinci əl”ini tapmaq mümkündür. Hamıya bu Xəzinəni tapmaq xoş olar...

-

**Hazırladı:**
**Xanım Aydın**



